## “Fərdi məlumatların mühafizəsinə dair Tələblər”in təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 275 nömrəli Fərmanının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Fərdi məlumatların mühafizəsinə dair Tələblər” təsdiq edilsin (əlavə olunur).

2. Bu qərarın 1-ci bəndi ilə təsdiq edilmiş “Fərdi məlumatların mühafizəsinə dair Tələblər”in icrasına nəzarət öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar* Nazirliyi, ~~*Azərbaycan* Respublikasının Milli Təhlükəsizlik Nazirliyi,~~ Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, *Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti və Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası* tərəfindən həyata keçirilsin.[1]

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 6 sentyabr 2010-cu il
161

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2010-cu il 6 sentyabr tarixli 161 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Fərdi məlumatların mühafizəsinə dair

## T Ə L Ə B L Ə R

### 1. Ümumi müddəalar

1.1. Fərdi məlumatların mühafizəsinə dair Tələblər (bundan sonra — Tələblər) “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 275 nömrəli Fərmanına əsasən hazırlanmışdır.

1.2. Tələblər fərdi məlumatların mülkiyyətçisi və ya operatoru tərəfindən fərdi məlumatların toplanılması, işlənilməsi, yayılması və verilməsi zamanı həmin fərdi məlumatların və müvafiq informasiya sistemlərinin mühafizəsi ilə bağlı yaranan münasibətləri tənzimləyir.

### 2. Fərdi məlumatlar işlənilən informasiya sistemləri qarşısında qoyulan əsas təhlükəsizlik tələbləri

2.1. İnformasiya sistemlərində fərdi məlumatların işlənilməsi zamanı aşağıdakı əsas texniki-təşkilati təhlükəsizlik tələbləri təmin olunmalıdır:

2.1.1. fərdi məlumatların işlənilməsində avtomatlaşdırılmış texniki vasitələrin işinin pozulmasına gətirib çıxaran təsirlərə yol verilməməsi;

2.1.2. fərdi məlumatlara qanunsuz müdaxilə faktlarının vaxtında aşkar edilməsi;

2.1.3. fərdi məlumatlara qanunsuz müdaxilənin, surətinin çıxarılmasının və (və ya) bu məlumatların onlarla işləməyə icazəsi olmayan şəxslərə ötürülməsinin qarşısının alınması;

2.1.4. dəyişdirilmiş və ya məhv edilmiş fərdi məlumatların dərhal bərpası imkanının olması;

2.1.5. fərdi məlumatların mühafizə səviyyəsinin daim nəzarətdə saxlanılması;

2.1.6. fərdi məlumatların işlənilməsi zamanı onların təhlükəsizliyinə qarşı yönələn təhdidlərin müəyyən edilməsi və bunun əsasında ehtimal edilən təhdidlərin neytrallaşdırılmasını təmin edən fərdi məlumatların mühafizə sisteminin işlənib hazırlanması və daim təkmilləşdirilməsi;

2.1.7. fərdi məlumatlar üzərində aparılan əməliyyatların yalnız fərdi məlumatların mülkiyyətçisi tərəfindən yoxlanılmış və təsdiq edilmiş təlimatlar və proqram təminatı əsasında həyata keçirilməsi (fərdi məlumatların yazılması, sistemləşdirilməsi, təzələnməsi, dəyişdirilməsi, çıxarılması, adsızlaşdırılması, saxlanılması, ötürülməsi, məhv edilməsi);

2.1.8. fərdi məlumatların informasiya sistemlərinin mühafizə vasitələrinin və üsullarının istismar və texniki sənədlərə uyğunluğu barədə müvafiq sənədin olması;

2.1.9. informasiya mühafizə vasitələrinin istismar və texniki sənədlərə uyğun quraşdırılması və istismara verilməsi;

2.1.10. informasiya mühafizə vasitələrindən istifadə edən şəxslərə həmin vasitələrlə işləmə qaydalarının öyrədilməsi və onların bilik və bacarıqlarının təkmilləşdirilməsinə dair təlimlərin keçirilməsi;

2.1.11. tətbiq edilən informasiya mühafizə vasitələrinin, onların istismar və texniki sənədlərinin, fərdi məlumat daşıyıcılarının uçotunun aparılması;

2.1.12. informasiya sistemində fərdi məlumatlarla işləməyə icazə verilən şəxslərin uçotunun aparılması;

~~2.1.13. fərdi məlumatların toplanılması, işlənilməsi və mühafizəsi sahəsində fəaliyyət göstərən fiziki şəxslərdən fəaliyyət müddətində və işdən çıxdıqdan sonra həmin məlumatların yayılmaması barədə yazılı iltizamın alınması;~~[2]

2.1.14. informasiya mühafizə vasitələrinin istifadəsi zamanı istismar və texniki sənədlərdə nəzərdə tutulan şərtlərə

riayət olunmasına nəzarət edilməsi;

2.1.15. fərdi məlumat daşıyıcılarının, informasiya mühafizə vasitələrinin saxlanılması şərtlərinə riayət edilməməsi nəticəsində fərdi məlumatların konfidensiallığının pozulmasına və onların mühafizə səviyyəsinin aşağı salınmasına səbəb olan faktların araşdırılması və bu barədə rəy tərtib edilməsi və belə pozuntuların təhlükəli nəticələrinin aradan qaldırılması üçün tədbirlərin hazırlanıb həyata keçirilməsi;

2.1.16. fərdi məlumatların saxlandığı mərkəzlərin ehtiyat enerji sistemi və yanğın- mühafizə siqnalizasiya sistemi ilə təchiz edilməsi;

2.1.17. data mərkəzinin arxiv sisteminin ayrıca binada yerləşdirilməsi;

2.1.18. informasiya sistemlərində lisenziyalaşdırılmış proqram təminatlarından istifadə edilməsi;

2.1.19. fərdi məlumat istifadəçilərinin səlahiyyət bölgüsünün aparılması, həmin səlahiyyətlərin avadanlıq və proqram təminatı səviyyəsində autentifikasiya edilməsi;

2.1.20. informasiya sistemindən fərdi məlumatları əldə etmək üçün müraciət edən istifadəçilərin öz mühafizə serverləri vasitəsilə müraciət etməsi;

2.1.21. informasiyanın ötürülməsi üçün istifadə olunan şifrləmə sisteminin açarının uzunluğunun 256 bit-dən az olmaması;

2.1.22. fərdi məlumatların mühafizə sisteminin təsvir edilməsi;

2.1.23. fərdi məlumatların informasiya sistemlərinin *və onların* layihə sənədlərinin dövlət ekspertizasından keçirilməsi. [3]

## 3. Fərdi məlumatların mühafizəsi sahəsində nəzarət

Bu Tələblərin icrasına nəzarət edən orqanlar ildə azı bir dəfə fərdi məlumatların informasiya sistemlərində mühafizənin düzgün qaydada təşkil olunmasının monitorinqini aparırlar.

## 4. Yekun müddəalar

4.1. Bu Tələblər qüvvəyə mindikdən sonra, “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsinə qədər mövcud olan fərdi məlumatların mülkiyyətçiləri və ya səlahiyyətli operatorları fərdi məlumatların mühafizəsini ən geci 6 ay müddətində bu Tələblərə uyğun təşkil etməlidirlər.

~~4.2. Fərdi məlumatların toplanılması, işlənilməsi və mühafizəsi sahəsində fəaliyyət göstərən fiziki şəxslər məlumatların yayılmamasına və qorunmasına görə qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyırlar.~~

### İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 13 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti, 22 iyun 2014-cü il, 131, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 747**)
2. 22 sentyabr 2016-cı il tarixli **360** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti 30 sentyabr 2016-cı il, 214, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1585**)
3. 18 iyul 2017-ci il tarixli **295** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 19 iyul 2017-ci il, 153, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7, maddə 1492**)
4. 21 yanvar 2019-cu il tarixli **1 8** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 25 yanvar 2019-cu il, 19 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 162**)

### QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 13 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti, 22 iyun 2014-cü il, 131, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 747**) ilə 2-ci hissəsində “**İnformasiya Texnologiyaları**” sözləri “**Yüksək Texnologiyalar**” sözləri ilə əvəz edilmişdir.

22 sentyabr 2016-cı il tarixli **360** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti 30 sentyabr 2016-cı il, 214, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1585**) ilə 2-ci hissəsindən “**Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi**,” sözləri çıxarılmışdır və həmin hissəyə “**Ədliyyə Nazirliyi**” sözlərindən sonra “**, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti**” sözləri əlavə edilmişdir.

18 iyul 2017-ci il tarixli **295** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 19 iyul 2017-ci il, 153, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7, maddə 1492**) ilə 2-ci hissədə “**və Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti**” sözləri “**, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti və Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası**” sözləri ilə əvəz edilmişdir.

21 yanvar 2019-cu il tarixli **1 8** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 25 yanvar 2019-cu il, 19 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 162**) ilə 2-ci hissədə “**Rabitə və Yüksək Texnologiyalar**” sözləri “**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar**” sözləri ilə əvəz edilmişdir.

[2] 18 iyul 2017-ci il tarixli **295** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 19 iyul 2017-ci il, 153, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7, maddə 1492**) ilə “Fərdi məlumatların mühafizəsinə dair Tələblər”inin 2.1.13-cü yarımbənd və 4.2-ci bənd ləğv edilmişdir.

[3] 18 iyul 2017-ci il tarixli **295** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 19 iyul 2017-ci il, 153,**

**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7, maddə 1492** ) ilə "Fərdi məlumatların mühafizəsinə dair Tələblər"inin 2.1.23-cü yarımbəndə "**sistemlərinin**" sözündən sonra "**və onların"** sözləri əlavə edilmişdir.